

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzabəziyyətlidir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

15 oktyabr 2020-ci il
Cümə axşamı

№ 37 (3502)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# Beynəlxalq Astronavtika Konqresi keçirilib



**Beynəlxalq Astronavtika Federasiyasının prezidenti xanım Paskal Erenfroynd:** Gələcəyə baxaraq, gəlin 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək Azərbaycana, Bakıya bağlanaq. Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə söz verməkdən şərəf hissi duyuram.

**Azərbaycan Prezidenti İlham Əliyev:** Hörmətli xanımlar və cənablar, mən sizi Azərbaycanın paytaxtı Bakıdan səmimi qəlbdən salamlayıram. Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. İlk növbədə, mən bizim namizədliyimizi dəstəklədiyinə görə Beynəlxalq Astronavtika Federasiyasının üzvlərinə, Bürosuna və komitələrinə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan bir dəfə - 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edib. Beləliklə, 50 ildən sonra - 2023-cü ildə paytaxtımızda ikinci konqresə ev sahibliyi etməyimiz rəmzi məna kəsb edəcək. Lakin həmin vaxt Azərbaycan müstəqil deyildi. Azərbaycan Sovet İttifaqının tərkibində idi, Sovet İttifaqının 15 respublikasından biri idi. 1973-cü ildə Azərbaycanın konqresə ev sahibi seçilməsi xalqımızın və Azərbaycanın yüksək intellektual və texniki potensialını nümayiş etdirdi. Üç ildən sonra biz sizi Bakıda görəcəyik. Əlli ildən sonra Konqresin bizim şəhərimizə - lakin indi müstəqil Azərbaycanın paytaxtına qayıtması çox rəmzi məna kəsb edəcək.

**Oktyabrın 12-də "Kiber Kosmos buraxılışı" mövzusunda keçirilən virtual 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində Prezident İlham Əliyevin videomüraciəti təqdim olunub**

Müstəqillik dövründə Azərbaycan möhtəşəm inkişafa nail olub. Azərbaycan beynəlxalq arenada fəal ölkələrdən biridir. Bu gün Azərbaycan Birləşmiş Millətlər Təşkilatından sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına sədrlik edir. Bizim iqtisadi göstəricilərimiz statistikada öz əksini tapıb. Son 17 ildə ümumi daxili məhsulumuz üç dəfə artıb, yoxsulluq səviyyəsi demək olar ki, 50 faizdən 5 faizə düşüb, xarici borcumuz ümumi daxili məhsulumuzun təxminən 20 faizi həcmindədir və ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur.

Hazırda təbii ehtiyatlarımız inkişafımıza xidmət edir və təbii ehtiyatlarımızın insan kapitalına çevrilməsi bizim əsas prioritetlərimizdən biridir.

Bu gün Azərbaycan kosmik klubun üzvüdür və Azərbaycan 3 peyki ilə bu istiqamətdə öz fəaliyyətini davam etdirməyi planlaşdırır. Mən əminəm ki, 2023-cü ildə paytaxtımızda keçiriləcək Konqres ölkəmizdə kosmik sənayenin inkişafına əlavə stimul verəcək. Sizə uğurlar arzu edirəm və 2023-cü ildə Bakıda görüşərik. Təşəkkür edirəm.

**Xanım Paskal Erenfroynd:** Cənab Prezident, bu ilhamlandırıcı çıxışınız üçün çox sağolun. 2023-cü ildə Bakıya gəlməyi səbirsizliklə gözləyirəm.

***Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın "RBK" televiziya kanalına müsahibə verib. Oktyabrın 11-də həmin televiziya kanalında dövlətimizin başçısının müsahibəsi yayımlanıb.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib.**

# #PrayForGanja həştəqi trendə düşdü

Erməni silahlı qüvvələrinin Ermənistanın Vardenis şəhərindən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin mülki əhalisini raket atəşinə tutması ilə bağlı "Twitter" mikrobloqunda Azərbaycan vətəndaşlarının başlatdığı #PrayForGanja həştəqi üzrə paylaşımlar trend olub və müzakirə olunan mövzular arasında ilk sıralarda yer alıb. Bu həştəq üzrə dünyada 1 milyon 240 min tvit atılıb.

İnsanlar bu paylaşımlarında beynəlxalq təşkilatlara və beynəlxalq ictimaiyyətə erməni vandalizminə və Ermənistanın dövlət terroruna son qoymağa çağırış edib.

# Mehriban Əliyeva: "Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq!"

Bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımdandır.

**Paylaşımda deyilir:**

"Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edirlər. Bu, humanitar atəşkəs rejiminin, habelə 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulması deməkdir.

Bu gecə saat 2 radələrində Gəncə şəhərinə amansızlığına görə misli görünməmiş zərbə endirilib.

Əldə olan məlumata görə, raket atəşi nəticəsində 9 nəfər (o cümlədən 4 qadın) həlak olub, 34 nəfər yaralanıb, çoxsaylı mülki obyektlərə ciddi ziyan vurulub.

Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib. Humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb.

Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram.

Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər.

Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır.

Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

**Əziz həmvətənlər!**

Bu gün siz xalqımızın birlik, həmrəylik,



şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!".

# Gənclərə etimad göstərilir



**Oktyabrın 14-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən Nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 104 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb.

General-polkovnik Vilayət Eyvazov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayaraq daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

# ORDUMUZA DƏSTƏK HƏM DƏ VƏTƏNDAŞLIQ BORCUMUZDUR



**Bugünlərdə Daxili İşlər Nazirliyi rəhbərliyinin göstərişi ilə cəbhə boyu ərazilərdə yerləşən və komendant saatının tətbiq edildiyi rayonlarda çətin və şərəfli xidmətlərini uğurla davam etdirən polis şöbələrinin əməkdaşlarına fəaliyyətlərini daha da təkmilləşdirmələri üçün yeni xidməti avtomobillər təhkim olunub.**

Qeyd edək ki, ölkə ərazisində elan edilən hərbi vəziyyətlə əlaqədar vətəndaşların təhlükəsizliyinin, həmçinin ictimai asayişin daha etibarlı təmini istiqamətində polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının gecəli-gündüzlü, ayıq-sayıq xidmət aparması cəbhə bölgəsinin sakinləri tərəfindən rəğbətlə qarşılanır.

*M.K.*

# Təbliğat-təşviqat işi də uğurla davam edir

Döyüş əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində təbliğat-təşviqat işinin rolu danılmazdır. Bu tədbirlərin keçirilməsində məqsəd Ordu-Xalq birliyinin daha da möhkəmləndirilməsi, Ordumuzun qüdrətinin və döyüşlərdəki uğurlarının işıqlandırılması, eləcə də xalqımızın orduya dəstəyi və etimadını hərbi kollektivlərə çatdırmaqla şəxsi heyətin döyüş ruhunun və qələbə əzminin daha da yüksəldilməsidir.

Əyani təbliğat-təşviqat tədbirləri çərçivəsində Ali Baş Komandanın müraciətləri, təbrikləri və ürək sözləri, həmçinin hərbi komandanlığın müraciətləri şəxsi heyətə və mülki sakinlərə çatdırılır, əldə edilən qələbələr barədə məlumatlar operativ şəkildə yayımlanır. Səyyar səsyayıcı stansiyaların tətbiqi ilə keçirilən tədbirlərin hərbi-vətənpərvərlik mahnı və marşları ilə müşayiət edilməsi şəxsi heyət, eləcə də cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi və rəğbətlə qarşılanır.




# DİN-in Mətbuat Xidmətindən

**“COVID-19” pandemiyası ilə əlaqədar ölkədə hazırki sanitar-epidemioloji vəziyyət təhlil edilərkən çox təəssüf ki, respublikanın bəzi ərazilərində əhali arasında virusa yoluxmanın dinamikasında yenidən ciddi artım müşahidə edilib.** Bununla əlaqədar Nazirlər Kabinetinin 2020-ci il 13 oktyabr tarixli qərarı ilə 14 oktyabr saat 00:00-dan başlayaraq Sabirabad şəhərinə, rayonun Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndlərinə, Şəki şəhərinə və Kiş kəndinə operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, giriş-çıxış məhdudlaşdırılıb.

Qərardan irəli gələn vəzifələrin icrası ilə əlaqədar qeyd olunan rayon mərkəzlərinin və kəndlərin giriş-çıxışlarında xüsusi karantin postları təşkil edilərək polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları gücləndirilmiş iş rejimində xidmətə cəlb olunublar.

Bu təhlükəli virusun geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

“COVID-19” pandemiyası zəminində dünyada yaşanan hazırki fövqəladə vəziyyətdə və dövlətimiz üçün həssas bir dönəmdə ölkə əhalisinə xüsusi karantin rejimi müddətində göstərdikləri əzm və vətəndaş məsuliyyətinə görə bir daha təşəkkür edirik. İnanırıq ki, qarşıdakı müddətdə də virusun geniş yayılmaması, insanlar arasında daha təhlükəli fəsadlar törətməməsi üçün vətəndaşlarımız, o cümlədən Nazirlər Kabinetinin qərarında adları qeyd olunan Sabirabad və Şəki rayonlarının sakinləri karantin rejiminə nəzarəti həyata keçirən polis əməkdaşlarının tələb və tövsiyələrini anlayışla qarşılayacaq və bununla əlaqədar tətbiq edilən bütün qayda və qadağalara ciddi riayət edəcəklər.

*14 oktyabr 2020-ci il*



# GƏNCƏ TERRORU BEYNƏLXALQ MƏTBUATDA

Qətərə məxsus Ərəb dünyasının ən nüfuzlu media orqanı olan "aljazeera.com" Gəncədə baş verən terror aktı ilə bağlı ətraflı məlumat yayıb. Media orqanı xüsusi ilə vurğulayıb ki, Gəncə şəhəri Dağlıq Qarabağdan 60 kilometr kənarda yerləşir. Gəncə Azərbaycanın ikinci böyük şəhəridir və burada hər hansı hərbi baza yoxdur. Buna baxmayaraq, məhz bu şəhər belə dəhşətli hücuma məruz qalıb.

Qeyd edək ki, 2013-cü ildən ABŞ-da da yayımlanan "aljazeera.com"a məxsus "Al Jazeera America" televiziya kanalı da həmin materialları yayımlayır. "Aljazeera.com" dünyanın "BBC" və "CNN" kimi nəhəng media mərkəzləri ilə ciddi rəqabətdədir və bir çox hallarda onları üstələyir.

ABŞ-ın "news.sky.com" saytı da bu məsələyə xüsusi diqqət ayırıb. Saytda atəşkəsdən sonra Gəncənin bombardman edilməsi və mülki şəxslərin ölməsi haqqında geniş məlumat verilib. Eyni zamanda, Gəncədə partlayış anını özündə əks etdirən kadrlar izləyicilərin diqqətinə çatdırılıb. "TRT Haber“in də yaydığı həmin görüntülər" mirror.co.uk", "bbc.co.uk", "msn.com", "sbs.com.au" və onlarla bu kimi saytlar tərəfindən yayımlanıb.

Yeri gəlmişkən, "Reuters" agentliyi də "TRT Haber"ə istinadən həmin kadrlara yer verib.

"The Associated Press" və "Xinhua" agentlikləri də Gəncə terroru ilə bağlı video-görüntüləri yayıblar.

Böyük Britaniyanın "The İndependent" qəzeti də Gəncə hadisələri haqqında məqalə dərc edib.

İranın "The Tehran Times" qəzeti isə Gəncə şəhərinin adını çəkməyib. Sadəcə, qeyd edib ki, İran Azərbaycan və Ermənistanda mülki əhalinin hədəfə alınmasını şiddətlə qınayır.

Almaniyanın ən nüfuzlu nəşri olan "DW"-də bu barədə geniş məqalə hazırlayıb.

*****

İspaniyanın böyük oxucu kütləsinə malik "LA RAZÓN" qəzetinin elektron versiyasında Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri Anar Məhərrəmovun "Azərbaycan öz ərazi bütövlüyünü müdafiə edir" sərlövhəli məqaləsi dərc edilib.

*****

Tacikistanın "avesta.tj" portalında Ermənistan tərəfindən Azərbaycanın qədim Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı rus dilində məqalə yerləşdirilib.

*Ardı 3-cü səhifədə.*

# *VƏTƏN DAŞI OLANLARI UNUTMURUQ...*

**Döyüş bölgəsi... Bu iki kəlmə ilə gözlərimiz önünə müharibənin odu-alovu, ölümsaçan mərmilərə nişangah olan yerlər gəlir. Bu iki kəlmə şəhid qanı ilə suvarılan torpaqlara tuşlanan hər bir mərminin, güllənin bir ürəkdən keçə biləcəyini, bir nəfəsi susdura, bir ömrü yarım qoya biləcəyini diktə edir...**



Vətənpərvərliyin ən ali məqamıdır ŞƏHİDLİK. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnək bir yoldur. Qəhrəmanlıq bir anın bəhrəsi deyil, o xarakterin, tərbiyənin, mənəvi yaddaşın gücü ilə diktə olunan keyfiyyətdir. Onun mahiyyətində təsadüf adlanan heç nə yoxdur.

Bu gün biz Qarabağa doğru gedirik, çünki onu xilas etməyin vaxtı çatıb. Zaman xeyrimizə işləyir və bu haqq savaşı qələbə ilə bitməli, azad edilmiş kəndlərimizdən, qəsəbələrimizdən və şəhərlərimizdən Azərbaycan bayrağı asılmalıdır. Murovun illərdir ki, buz tutmuş zirvələrini Azərbaycan əsgəri isti nəfəsi ilə əritməlidir. “Biz birlikdə güclüyük”, “Qarabağ Azərbaycandır!” şüarı artıq sərhədlərimizi aşıb. Dünya Azərbaycanlıları da o müqəddəs günü gözləyir...

“Səngər, pulemyot, tank, təmas nöqtəsi, artilleriya..., düşmən daha bir yaşayış məntəqəsini ələ keçirdi...” kimi sözləri mənfur ermənilərin vəhşiliyi səbəbindən düz 30 ildir ki, hər gün, hər saat eşidirik.

Sentyabrın 27-də isə hər şey bir anda baş verdi. Hücum edən düşmən elə bir güclə qarşılaşdı ki, gözünü açmağa belə imkan tapmadı. Otuz illik səbrin də “atəşkəsi” pozulmuşdu...



***Vətən müharibəsi uğrunda başlayan döyüşlərin ilk şəhidlərindən olan Abbas Qasımovun DİN Polis Akademiyası Katibliyinin rəisi, polis polkovniki Səltənət Mustafayevanın bacısının oğlu olduğunu biləndə göz yaşlarımıza hakim ola bilmədik. Bu itki içimizi titrətdi.***

***Səltənət xanımın ömür-gün yoldaşı da 1991-ci ilin 18 avqustunda torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhid olub.***

**Polis polkovniki Səltənət Mustafayeva:** “Abbas 2007-ci ildə Sərhəd Qoşunları Akademiyasını bitirmişdi. Sentyabrın 25-də axşam saatlarında evə gəlmişdi. Dedi ki, iki saatlığına gəlib. Hələ mən də dedim ki, iki saata görə nəyə gəlmisən? Dedi gəlmişəm ki, görüşüm gedim. Sanki ayrılıq olacağını bilirdi. Səhərə yaxın anası, həyat yoldaşı (hamısı birlikdə yaşayır) onu yola salmışdılar. Hansı rayonda olacaqlarını deməmişdi. Dəfələrlə xidməti ezamiyyətlərdə olurdu. Yoldaşıyla, anasıyla demək olar ki, hər gün əlaqə saxlayırdı. Sentyabrın 26-da gecə yoldaşı ilə danışıb. Ailəsinə çox bağlı idi. Xidmətini də çox sevirdi. Heç vaxt işdə çətinliklərinin olduğunu biruzə vermirdi. Atası avtoqəzada dünyasını dəyişmişdi. Bacım çox əziyyət içində böyütmüşdü onu. Oxutdu, evləndirdi. Anasının bütün ümidlərini doğrultdu Abbas. Əlirza və Hüseyn adlı iki oğul övladı yadigar qaldı...

Yoldaşları deyir ki, Abbasın lazımi hədəfi məhv etməsilə biz irəliləmək imkanı əldə etdik. O, şəhid generalımız Polad Həşomovun yanında dəfn olunub.”

Haqq olanın işi bütün zamanlarda zor olub. Dünya dünən olduğu kimi bu gün də haqlının deyil, haqsızın yanında yer alır. Bu, bizi əsla qorxutmur, əksinə, daha böyük inadla və əzmlə Vətən torpaqlarını işğaldan azad etməyə ruhlandırır. Düşməni hər gün geri çəkilməyə məcbur edən, onun başına od ələyən oğullarımızın sayəsində Abbas kimi igidlərimizin qanı yerdə qalmayacaq. XXI əsrin Vətən tarixini onlar öz qanları ilə yazdılar. Və bu tarix unudulmayacaq, yaddan çıxmayacaq.

*Aynur Səfərli,*
*polis leytenantı,*
*DİN Polis Akademiyasının əməkdaşı*

# Bu, qəhrəmanlıq deyil, bəs nədir?

Müharibənin dördüncü günündə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşdülər. Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almış yaralılara şəfa diləyən cənab İlham Əliyev dedi: "Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər... Siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik..."



Görüşdə yaralılardan biri – mayor Etibar Camalov çıxışında Ali Baş Komandanın sözlərindən qürur duyduqlarını hər zaman torpağımız, dövlətimiz üçün silaha sarılıb vuruşmağa hazır olduqlarını bildirdi. O, tibb personalının yaralılara böyük diqqət və qayğı göstərdiyini, çox yaxın bir zamanda sağalıb, bütün döyüşçü yoldaşları ilə cəbhə bölgəsinə qayıdacaqlarına inamını ifadə etdi.

Bəli, bu, qəhrəmanlıq nümunəsidir! Müzəffər ordumuz bax bu cür oğulları ilə rəşadətlidir. Bu cümlələri yaza-yaza xalq şairi Səməd Vurğunun tarixə Böyük Vətən müharibəsi kimi düşmüş "1941-1945-ci illər müharibəsi"nin əvvəllərində - 1941-ci ilin iyul ayında yazdığı bir şeirini xatırlayıram. Şeir belə adlanır: "Məhəbbət".

***– İstirab içində yatır qəhrəman,***
***Nə qədər solğundur onun bənizi,***
***Canında qalmamış artıq isti qan,***
***Doktor kömək üçün çağırır bizi:***
***"Gəlin, bu igidə qan verək bir az,***
***Yoxsa bu yaradan xəstə sağalmaz".***

***Odur, laçın gözlü bir qız gələrək,***
***Açdı sağ əliylə öz sol qolunu.***
***"Tez ol qan al!" – dedi o gözəl mələk,***
***Öz qanım sağaltsın Vətən oğlunu".***
***Doktor sevinərək durmadı bir an,***
***Qan aldı o qızın şümşad qolundan,***

***Azacıq keçmədən tərpəndi xəstə,***
***Yenə də dünyaya baxdı gözləri.***
***Qız çiçək də verdi ona bir dəstə,***
***İnsanlıq böyükdür əzəldən bəri...***
***Xəstənin köksündə çırpındı ürək,***
***Baxdı gözəl qıza gülümsəyərək.***

***Dolandı həftələr... Qalxdı qəhrəman,***
***Yenə xatirinə düşdü cəbhələr...***
***O, ayrı düşmüşdür yoldaşlarından,***
***Qəfəsdə bağlanıb qalarmı hünər?***
***Alıb silahını düzəldi yola,***
***Dalınca qız dedi: – Uğurlar ola!***

Əl içi boydakı bir şeirdə nə qədər səmimi pıçıltılar, səmimi ifadələr olarmış, İlahi? Bu gün Azərbaycan əsgəri tarix yazır!

Daha bir qəhrəmanlıq nümunəsi: Oktyabrın 8-də saat 11:00 radələrində vəziyyəti öyrənmək üçün Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsinə – Xocalı rayon Polis Şöbəsinin rəisinə zəng edirəm:

**– Polis polkovnik-leytenantı Zaur Nəbiyev eşidir sizi, cənab polkovnik.**

– Vəziyyətiniz necədir, probleminiz yoxdur ki? – soruşuram.

– Hər şey qaydasındadır, narahat olmayın, – deyir və əlavə edir ki, şəxsi heyətin əhval-ruhiyyəsi yüksəkdir...

Bu qısa dialoqdan az sonra eşidirəm ki, 5 saat əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən atılmış mərmilərdən biri RPŞ-nin inzibati binasına, xüsusilə də rəisin kabinetinə ciddi ziyan vurub.

İlahi, Vətənə bağlılıq necə möhkəm olarmış? Vətən sevgisi hər şeyi necə üstələyərmiş? Əslində, mənim cavabım "Gərginlikdir", "Atırlar", "Evlərə və təsərrüfatlara ziyan dəyib" kimi sözlər olmalıydı. Demədi bunları Zaur Nəbiyev. Yalnız onu dedi ki, əhvalımız yüksəkdir. Bu, qəhrəmanlıq deyilmi?

Saysız-hesabsızdır belə nümunələr. Mən sadəcə ikisini göstərdim: Ordu zabiti Etibar Camalovla polis zabiti Zaur Nəbiyevin cəsarətini, qətiyyətini. Və bu sətirləri yaza-yaza hiss edirəm ki, şair Yurdoğlunun təbirincə desəm, ruhum özünə yer tapmır, qanım qaynayır, yumruğum sıxılır, biləyim möhkəmlənir. Bilirsiniz niyə? Çünki bizim işimiz haqq işidir, mübarizəmiz haqqın uğrundadır. Tanrıya şükür edək ki, bu gün Etibar kimi, Zaur kimi oğullarımızın sayı minlərlədir. Hər biri də canını Vətənə fəda etməyə hazır oğullar. Axı...

***Bu namus savaşıdır, bu, torpaq savaşıdır,***
***Qarabağçün darıxan bir bayraq savaşıdır.***
***Bu, haqqını istəyən xalqın haqq savaşıdır,***
***Qoy haqqın uğrunda da canımız olsun fəda,***
***Hamı bilsin, Qarabağ Azərbaycandır, nida!***

*Rahib Qarayev,*
*Şəxsi Heyətlə İş İdarəsinin rəisi,*
*polis polkovniki*

*Əvvəli 2-ci səhifədə.*

# GƏNCƏ TERRORU BEYNƏLXALQ MƏTBUATDA




Gürcüstanın populyar informasiya resursları Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "RBK" telekanalına müsahibəsinə və dövlətimizin başçısının rəsmi "Twitter" hesabında Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı fikirlərinə geniş yer ayırıb.

"report.ge", "sputnik-georgia.ru", "24news.ge", "interpressnews.ge" və digər informasiya resurslarında sayılan məlumatlarda Azərbaycan Prezidentinin fikirləri rus, ingilis və gürcü dillərində oxucuların diqqətinə çatdırılıb.

*****

Özbəkistanın "Interpress.uz", "fikr.uz","human.uz" və "interfax.uz" portalları Ermənistanın humanitar atəşkəs rejimini pozması və Gəncəni raket atəşinə tutması ilə bağlı özbək və rus dillərində məqalələr yayıb.


AVESTA
INFORMATION AGENCY
11 Октября Воскресенье +25°C Душанбе

Главная / Новости / Главная / Армения, в нарушении договоренности, нанесла ракетный удар по Гяндже, второй по величине город Азербайджана

**Армения, в нарушении договоренности, нанесла ракетный удар по Гяндже, второй по величине город Азербайджана**

11 октября 2020, 18:35

**Avesta.Tj | 11.10.2020 |** ВС Армении продолжают массированный обстрел населения и гражданских объектов на территории Азербайджана, в нарушение условий гуманитарного прекращения огня, а также Женевских конвенций 1949 года.

В частности, по сообщениям СМИ, Армения, в нарушении достигнутых договоренностей, наносит удары по второму по величине городу Азербайджана – Гяндже.

*****

İtaliya Senatında "İrəli İtaliya" partiyası siyasi qrupunun sədr müavini, İtaliya Parlamentində İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının sədr müavini, senator Maria Rizzotti Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəslə bağlı razılığı kobud şəkildə pozması və çoxsaylı mülki şəxslərin həlak olması və yaralanması ilə nəticələnmiş Azərbaycanın müxtəlif yaşayış məntəqələrini raket atəşinə tutmasını qəti şəkildə pisləyən bəyanatla çıxış edib.

*****

Ermənistanın Gəncə şəhərindəki yaşayış binalarına ballistik raketlə zərbə endirməsi Anadolu agentliyinin "60 saniyə bu gün" rubrikasında yer alıb.

*****

Norveçin "Utrop" qəzetində Dağlıq Qarabağ münaqişəsi haqqında məqalə dərc edilib. Məqalədə, habelə münaqişənin yenidən aktiv fazaya keçməsinə məsuliyyət daşıyan Ermənistan tərəfinin atdığı addımlar pislənilib və Norveç hökuməti məsələyə düzgün qiymət verməyə çağırılıb.

*****

"EU Politics" nəşri Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin yaşayış məhəllələrinin atəşə tutulması barədə yazıb.

*****

"BBC" telekanalı Ermənistanın Gəncə şəhərini raket atəşinə tutması ilə bağlı reportaj yayımlayıb.

*****

Avstraliyanın "SBS" telekanalı Ermənistan ordusunun Gəncəyə raket hücumu barədə kadrlar yayıb.

*****

"Atəşkəs dövründə Azərbaycanda yaşayış ərazisinin bombardman edilməsi". Almaniyanın "Deutschelandfunk.de" nəşrində dərc olunan material bu sərlövhə ilə verilib. Materialda Ermənistan silahlı qüvvələrinin atəşkəs saatlarında Gəncə şəhərinə qarşı hücumundan danışılır. Məqalədə qeyd edilir ki, qondarma "Dağlıq Qarabağ respublikası" beynəlxalq səviyyədə tanınmayıb və beynəlxalq hüquqa müvafiq surətdə Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edilir.

# Nəzarət etməklə yanaşı, maarifləndirirlər də...

"Yollarda tıxacların aradan qaldırılması, yeraltı və yerüstü piyada keçidlərinin tikilməsi istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər təkcə sürücülərin deyil, piyadaların da ürəyincədir. Məqsəd, əlbəttə ki, vətəndaş məmnunluğudur. Bu gün yollarda təhlükəsizliyin keşiyində ayıq-sayıq duran həmkarlarımızın da üzərinə böyük məsuliyyət düşür. Əgər müzakirə mövzusu insan taleyidirsə, o zaman bütün səy və bacarıqlarımızı, o cümlədən imkanlarımızı səfərbər etməliyik. Xidmətimizə gəlincə, onu vurğulamaq istəyirəm ki, Ekoloji Nəzarət üzrə Yol Patrul Xidmətinin şəxsi heyəti ekoloji tarazlığı pozan, ətraf mühiti çirkləndirən və nasaz vəziyyətdə olan avtomobillərin müəyyən edilməsi üçün sözün əsl mənasında gecəli-gündüzlü xidmət aparırlar".




***Ötən dövr ərzində görülən işləri diqqətimizə çatdıran Baş Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan Ekoloji Nəzarət üzrə Yol Patrul Xidməti Bölüyünün komandiri, polis mayoru Mərdan Mehdiyev müasir texnologiyaların köməyə çatmasını xüsusi vurğuladı.*** Bildirdi ki, nəqliyyat vasitələrində zəhərli qazların miqdarının yoxlanılması məqsədi ilə tikilən inzibati bina həm də müasir avadanlıqlarla təchiz edilib. Texniki cəhətdən nasaz, dövlət nömrə nişanlarının daşınması qaydalarına əməl olunmadan idarə olunan avtomobillər, o cümlədən şübhə doğuran istənilən nəqliyyat vasitəsi nəzarət qaydasında saxlanılır və sürücü barəsində yerindəcə müvafiq tədbir görülür. Sentyabr ayı ərzində mühərrikin işlənmiş qazında zərərli maddələrin miqdarı normadan artıq olduğuna görə 100-ə yaxın avtomobil sürücüsünə İnzibati Xətalar Məcəlləsinin 342.5-ci maddəsi ilə protokol tərtib olunub.



Xidmətin əməkdaşları, həmçinin mart ayından bu günə kimi koronavirusla mübarizə tədbirləri çərçivəsində 1925-dən çox sürücüyə fərdi qoruyucu vasitələrdən istifadə etmədiklərinə görə müvafiq protokollar tərtib ediblər.

M.Mehdiyev Xidmətin əməkdaşları tərəfindən sürücülər arasında mütəmadi olaraq maarifləndirmə işlərinin aparıldığını və bunun müsbət təsirini-avtomobilləri sənədsiz və sərxoş vəziyyətdə idarə edənlərin, sürət həddini aşanların və bu kimi digər qayda pozanların azaldığını qeyd etdi.

Bakı-Quba yolunun bir hissəsi olan Bakı-Sumqayıt yolunun intensivliyi və Xırdalan dairəsindən Binəqədi istiqamətində yolun yüklənməsinin qarşısının alınması, ən əsası həmin istiqamətdə tamamilə maneəsiz hərəkətin təmin edilməsi də Xidmətin əməkdaşları tərəfindən nizamlanır.

Qəzaların başvermə səbəbləri ilə bağlı sualımızı cavablandıran komandir səbəb kimi sürücülərin sükan arxasında mobil telefondan istifadəsini, diqqətsizliyini, tələskənliyini vurğuladı.

Bu gün onlar yollarda vətəndaşlarımızın təhlükəsizliyi, mənzil başına salamat çatması üçün hər cür fədakarlıq sərgiləyir, köməyə çatır, dada yetirlər.

Yeri gəlmişkən, xidmətin əməkdaşlarının ölkəmizə təşrif buyuran turistlərlə rus və ingilis dillərində danışmaları da diqqətimizdən yayınmadı.

*Ruslan Vəliyev,*
*polis leytenantı*




# Koronavirusla mübarizə davam edir

**Karantin rejimi ilə əlaqədar Şəkidə polis və Daxili Qoşunların əməkdaşları gücləndirilmiş iş rejimində xidmət aparır**

Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" qərarındakı dəyişikliyə əsasən oktyabrın 14-də saat 00:00-dan etibarən Şəki şəhərinin və rayonun Kiş kəndinin giriş-çıxışlarında postlar qurulub.

Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən həmin postlarda, eləcə də şəhər və Kiş kəndinin daxilində gücləndirilmiş rejimdə xidmət aparılır. Postlarda operativ və xüsusi nəqliyyat vasitələri, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla digər nəqliyyat vasitələrinin giriş-çıxışı məhdudlaşdırılıb. Bundan əlavə şəhərdaxilində yerləşən iri marketlərdə, ictimai iaşə müəssisələrində və sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrində polis əməkdaşları və hərbi qulluqçular tərəfindən birgə reydlər təşkil olunur. Sosial məsafəni gözləməyən, tibbi maskadan istifadə etməyən şəxslərlə profilaktik söhbətlər aparılır və bu tədbirlərin vətəndaşların sağlamlığı üçün həyata keçirildiyi onların diqqətinə çatdırılır. Edilən xəbərdarlıqlara və aparılan maarifləndirici söhbətlərə baxmayaraq, qaydaları pozmaqda davam edən şəxslər barəsində qanunamüvafiq tədbirlər görülür.

Qeyd edək ki, kafe, restoran və digər ictimai iaşə müəssisələri bu müddət ərzində axşam 21:00-dək fəaliyyət göstərəcəklər.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# BƏZƏN SÜKUT DA DANIŞIR

Hərdən danışmağa, yazmağa ehtiyac olmur. Gördüyünüz bu birinci foto kimi. O, özü hər şeyi danışır... 90-cı illərin əvvəllərində çəkilən bu şəkildə 5-6 yaşlarındakı oğlan uşağı nənəsinin kürəyində gözü yaşlı doğma elini, obasını tərk edir. Bəlkə də həmin gün onun nağıl dünyası yerlə-yeksan olmuşdu. Qaçaqaçın, qovhaqovun nə olduğunu dərk etməsə də, böyüklərin "bircə uşaqları qoruyaq, onlara bir şey olmasın", -deyib haray çəkdiklərini də tam anlaya bilmirdi. Ölümlə ömrün bir nöqtədə kəsişdiyi gündə fikri yenə də qarğı atında qalmışdı. Nənəsi, babası, atası, anası evindən, ocağından, o isə ayaqlar altında "can verən" oyuncaqlarından qopmaq istəmirdi. Döyüşməyə nə yaşı çatırdı, nə də ki, gücü. Böyüklərin "dava-dava oyunu çox amansız idi. Burda atalar, analar, nənələr, babalar və uşaqlar doğurdan ölürdülər...



İkinci foto isə 2020-ci ildə çəkilib. Fotodakı düz otuz ilə yaxındır ki, ürəyində gəzdirdiyi Vətən həsrəti və düşmənə nifrət hissi ilə böyüyən həmin uşaqdır. O uşaq ki, illər öncə nənəsinin kürəyində doğma yurdundan didərgin düşmüşdü. Bu gün isə kəndini, yurdunu azad etməkçün ora tank belində qayıdır.

Çünki orda onun yolunu gözləyən Vətən torpağı, illərdir ki, düşmən tapdağında qalan doğmalarının məzarları və onların nigaran qalan ruhları var.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

**Millətin varlığı üçün onun torpağının olması əsas şərtdir. Hayların isə doğrusu olmadığı kimi, torpağı da olmayıb. 1813-cü ildən bəri dünya erməni yalanına inanıb.**

XXI əsrdə, daha dəqiq desək, 27 sentyabrdan sonra erməni yalanı nə ayaq tutur nə də ki, yeriyir.

"Yalanın ömrü 40 gün olar",- deyimini öz işğalçı siyasəti ilə alt-üst edən haylar 30 ilə yaxındır ki, qədim Azərbaycan torpağı olan Dağlıq Qarabağı "Böyük Ermənistanın" bir parçası kimi dünya ictimaiyyətinə sırımaqda davam edir. Sırıya bilirmi? Son mənzərə onu göstərir ki, artıq erməni yalanından dünya ictimaiyyəti təngə gəlib. Məzlum xalq obrazına girən soysuzların ha-

# Erməni yalanı: nə ayaq tutur, nə də yeriyir

vadarları da bezib, usanıb. Azərbaycan Ordusunun ildırımsürətli əks-hücumu qarşısında aciz qalan düşmən ölüm ayağında belə yalandan əl çəkmir. Onların yalanının üstünü isə ordumuzun "Harop"ları açır.

Bəli, elm sübut edib ki, yalan danışan adam özünə əminsizlikdən, özünü olduğundan daha da yüksək təqdim etmək həvəsindən yaranan hisslərin eyforiyasından bu addımı atır. İnsan özünü zəif və çarəsiz hiss etdiyi zaman yalana müraciət edir. Bu psixoloji göstəricilər insana aid olanda, necəsə, yola vermək olar, amma vay o günə ki, bu xarakter bir xalqın yaşayış tərzinə çevrilsin-haylar kimi.

*Nurlan Əliyev,*
*polis leytenantı*

# Əlbəttə ki, QƏLƏBƏ!

Bu gün bütün Azərbaycan bu ruhda – qələbə ruhunda köklənib.

***Bircə ovuc torpağına minlər qurban vermişik,***
***Vətən – ana qucağıdır, Vətən torpağı – beşik.***
***Arxa cəbhə səfərbərdir, dörd gözlə çəkir keşik,***
***Qoca-cavan, qadın-uşaq "Vur, əsgərim, vur!" – deyir,***
***Həmsədrlər utanmadan "Atəşi durdur", – deyir.***



Tapa bilsəydim bu şeirin müəllifini – Nübar Eldarqızını, zərif məxluqun nümayəndəsi olaraq köksündə gəzdirdiyi böyük ürəyinə, o ürəyin "Vur, əsgərim, vur!",-deyib hayqırmasına rəğmən təşəkkürümü bildirər, qələm tutan əllərini böyük sevgi və məhəbbətlə sıxardım. Bu yurdun qızı-qadını belə qətiyyətlidirsə, əlində silah tutan şanlı əsgərinin cəsarətinə min əhsən!

"Dur" – yoxdur bu gün, ancaq "Vur!" var. "Vur, əsgərim, vur!" var. "Atəşkəs" yoxdur, "razılaşma" var. Bu razılaşmaya da hələ ki, Azərbaycan tərəfi riayət edir. O da ona görə ki, bütün dünyanın sülhə çağırdığı bir vaxtda bizim heç bir danışığa getməməyimiz, ancaq müharibə deməyimiz düzgün anlaşılmaz və zərərli olardı. Amma hər danışıq da müharibənin dayandırılması demək deyil. Çünki biz çox bic və hiyləgər düşmənlə mübarizə aparırıq. Ruhdan düşməyə haqqımız yoxdur. İnşallah, bu humanitar razılaşmanın nəticəsi də Şuşamızın, Laçınımızın fəthi ilə sonuclanacaq.

Kilsə zirzəmilərində mənfur ideoloji əsaslarla yaradılan "Daşnaksütün", "Qnçaq" və "ASALA" kimi terrorçu təşkilatlar üzərində qurulan mövcud erməni dövləti, tarix boyu özünün dövlətçilik ənənələri ilə Yaxın və Orta Şərqin siyasi və mədəni dəyərlərinin formalaşmasında böyük rol oynamış Azərbaycan dövlətçilik sisteminin qarşısında bu gün olduqca aciz və zəif görünməkdədir. Belə olmasaydı döyüş meydanında çoxsaylı itkilər verən erməni işğalçıları özlərinin qeyri-insani taktikalarından istifadə edərək mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutmaqla qisas almağa çalışmaz, bu gün də hərbi əməliyyatların aparıldığı ərazilərdə öz ənənəvi davranışlarını davam etdirməz, döyüş mövqelərində erməni əhalisindən canlı sipər kimi istifadə etməzdilər. Demək ki, ermənilər erməni dövləti üçün çox əhəmiyyətsiz və dəyərsiz bir toplumdır.

Yazıqlar olsun ki, bu toplumun başında cinayətkar rejimin baş naziri Nikol Paşinyan dayanır. O Paşinyan ki, siyasi dairələrdə siyasi fiqur kimi qiymətləndirilmir, əksinə, siyasi alət, oyuncaq kimi istifadə olunur. O Paşinyan ki, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyev sındırıb onu əməllicə.

Bir daha qeyd edirəm, – yoxdur atəşkəs. "Atəşkəs" adlı diplomatik gediş və "Atəşə davam!" var. Hərbi əməliyyatlar davam edəcək. Qoşunlarımız böyük ruh yüksəkliyi ilə irəliləyir və "Atəşkəs" dediyimiz bugünlərdə də irəliləyəcək. Atəş açmadan, mərmi yağdırmadan. Düşmənin müqavimət gücü yoxdur daha.

Bu gün möhtəşəm bir manevrə şahidlik edirik. Özünün fitri hərbi komandan keyfiyyətini ortaya qoyan Ali Baş Komandan "Atəşkəs" dediyimiz bu razılaşma ilə savaş meydanlarında qazandıqlarının diplomatik müstəvidə möhürlənməsi və davam etməsi, işğaldakı ərazilərimizin qalan hissəsinin də tam geri qaytarılması strategiyası üçün taktiki gedişlər edir.

Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

*Rahib Qarayev,*
*polis polkovniki*

# Oğrular yaxalandı...

Xətai RPİ 34-cü Polis Şöbəsinə maşın bazarı deyilən ərazidə köşklərin birindən 300 manat və 2 min 200 manat dəyərində tütün məmulatlarının oğurlanması barədə müraciət daxil olub. Dərhal **şöbə rəisinin vəzifəsini icra edən, polis mayoru Eyvaz Mürvələdov** işi nəzarətə götürüb. Şöbənin təcrübəli əməkdaşlarından-baş əməliyyat müvəkkilləri, polis mayorları Səfər Səfərov, Kamil Məmmədov və polis kapitanı Qoşqar Nəzərovdan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri, Vüsal Hüseynov və əvvəllər məhkum olunmuş Tural Kalbalılı saxlanılıblar.




Müəyyən edilib ki, Vüsal və Tural gecə küçədə heç kəsin olmadığını fürsət bilib köşkə yaxınlaşıblar. Tural dirsəyi ilə köşkün şüşəsini sındıraraq əllərinə keçən "qənimətlərini" özləri ilə gətirdikləri torbalara yığaraq oradan uzaqlaşıblar. Ancaq şöbə əməkdaşlarının peşəkarlığı və sayıqlığı sayəsində rayondakı binaların birinin zirzəmisində özünə gizlənmək üçün yer düzəldən Vüsal yaxasını ələ verib. O, şöbədə dostu Turalla da qarşılaşıb.

Ətrafında aparılmış əməliyyat tədbirləri ilə Vüsalın 2 nəfərlə birgə daha 2 köşkdən ümumilikdə 2 min 900 manat dəyərində tütün məmulatları və danışıq kartları oğurlaması da müəyyən edilib. Onları bu əməllərə sövq edən isə narkotik aludəçiliyi olub.

*****

Daha bir uğurlu əməliyyat Səbail RPİ 41-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilib. Daxil olmuş məlumata əsasən, əməliyyat-axtarış işinə başlayan bölmə əməkdaşları "Toyota" markalı avtomobili oğurlayan Ağstafa rayon sakini Elfaq Əliyevi Şəmkir rayonu ərazisində yaxalayıblar.

E.Əliyev nəfsinin qurbanı olub. Belə ki, o, işlədiyi avtoyuma məntəqəsinin sahibinin nəqliyyat vasitəsini oğurladıqdan sonra əvvəllər çobanlıq etdiyi İsmayıllı rayonuna gedib. Səhəri gün oradakı tanışının əşyalarını pul müqabilində İmişli rayonuna aparıb. Sonra qazandığı pulu xərcləmək üçün doğma rayonuna üz tutsa da mənzil başına çata bilməyib. Yarı yolda onu asayiş keşikçiləri qarşılayıblar.

*Teymur Əlizadə,*
*polis kapitanı*

## Oktyabr ayının 7-dən 13-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 160 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 46 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 122, o cümlədən borclu şəxs qismində axtarışda olan 78 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 18 nəfər ölmüş, 9 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 100 fakt müəyyən edilmişdir.

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi** ***əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş V.Əhmədov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan "Naqan" tipli tapança və 7 ədəd patron aşkar edilərək götürülmüşdür.***

◆◆◆

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Yardımlı rayon sakini M.Nuriyev Sumqayıt şəhəri ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqram 75 qram heroin və 1 kiloqramdan artıq metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsi** ***əməkdaşlarının daxil olmuş məlumat əsasında Masallı rayonu ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş G.Cəbrayılov saxlanılmışdır. Şəxşi axtarış zamanı ondan 11 qramdan artıq tiryək, idarə etdiyi "VAZ-2106" avtomobilə baxış zamanı isə 5 kiloqram 165 qram heroin, 545 qram tiryək və 191 qramdan artıq metamfetamin, habelə yaşadığı evə baxış zamanı 335 qramdan artıq marixuana aşkar edilərək götürülmüşdür.***

◆◆◆

**Xəzər RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini S.İsmayılov saxlanılmışdır. Şəxsi

ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

**1-ci Polis Şöbəsinin** əməkdaşları tərəfindən S.İsmayılovun ətrafında aparılmış tədbirlərlə narkotik vasitəni ona satmaqda şübhəli bilinən Qala qəsəbə sakini, əvəllər məhkum olunmuş N.Rzayev də müəyyən edilərək saxlanılmışdır. Onun evinə baxış zamanı oradan 2 kiloqram 266 qrama yaxın heroin, 20 qramdan çox marixuana və metamfetamin götürülmüşdür.

◆◆◆

**Xətai RPİ 35-ci PB** ***əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki apteklərin birindən 1200 manat pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.Həsənov saxlanılmışdır.***

◆◆◆

**Quba RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 2100 manat, 20 ABŞ dolları və 10 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvəllər məhkum olunmuş E.Cəlilov saxlanılmışdır.

◆◆◆

**Metropolitendə Polis Şöbəsi** ***əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 9-da metronun "Nizami" stansiyasında qatarda Sumqayıt şəhər sakini T.Həbibullayevanın içərisində pulu, sənədləri və bank kartları olan pulqabısını çantasından oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Əsgərov saxlanılmışdır.***

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik